UOT 94"19/..."

# AZƏRBAYCAN – FRANSA MÜNASİBƏTLƏRİNİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

**S.S.QULİYEVA**
***Bakı Dövlət Universiteti***
***salima.quliyeva@mail.ru***

*Məqalədə görkəmli dövlət xadimi, ulu öndər Heydər Əliyevin Azərbaycan Respublikası ilə Fransa dövləti arasında diplomatik münasibətlərin inkişafındakı rolundan bəhs edilir. Heydər Əliyev Azərbaycan Respublikası ilə Fransa arasında siyasi, iqtisadi və mədəni əlaqələrin əsasını qoymuş, ölkələr arasında mövcud olan qarşılıqlı anlaşma və dostluğun möhkəmləndirilməsinə öz töhfəsini vermişdir.*

**Açar sözlər:** Həydər Əliyev, Azərbaycan, Fransa, diplomatiya, xarici siyasət

Dövlət başçıları və onların siyasi iradələri ölkələr arasında münasibətlərin formalaşması və inkişafında mühüm rol oynayırlar. Hər bir dövlətin xarici siyasətinin müvəffəqiyyəti və beynəlxalq nüfuzu ölkənin qazanmış reputasiya resurslarından, onu təmsil edən rəhbərin (yaxud rəhbər işçinin) beynəlxalq aləmdə təsdiq olunmuş nüfuzundan, xalqın mədəni və intellektual səviyyəsindən çox asılıdır. Azərbaycan özünün reputasiya, ideoloji-mədəni resurslarına görə dünya ölkələri sırasında nüfuzlu yerlərdən birini tutur. Bu, Ümummilli lider, dünyada nüfuzlu ictimai, siyasi və dövlət xadimi imici qazanmış Heydər Əliyevin uzun müddət Azərbaycanı beynəlxalq aləmdə təmsil etməsi, müsəlman ölkələri içərisində Azərbaycanın Avropa dəyərlərinə, sivil, dünyəvi və hüquqi dövlət quruculuğu proseslərinə meylliyi, xalqın mədəni və intellektual səviyyəsinin yüksək olması, dünyanın elm, təhsil, mədəniyyət və incəsənət xəzinəsinə verdiyi qabaqcıl töhfələrdən və s. faktorlardan asılıdır [1, 262]. Bu mənada Azərbaycan Respublikası və Fransa arasında siyasi, iqtisadi və mədəni əlaqələrin inkişafında böyük rol oynamış Heydər Əliyevin diplomatik fəaliyyətinin və xarici siyasət irsinin öyrənilməsi çox əhəmiyyətlidir.

Bildiyimiz kimi, Fransa Azərbaycanın müstəqilliyini 1992-ci il yanvarın 3-də tanımışdır. İki ölkə arasında diplomatik münasibətlər isə 1992-ci il fevralın 21-də qurulmuşdur. Fransanın Bakıda səfirliyi 1992-ci il martın 16-da, Azərbaycanın isə Parisdə 1994-cü il oktyabrın 20-də açılmışdır. 1993-cü ilin yayına qədər Azərbaycanın yeritdiyi birtərəfli xarici siyasət nəticəsində Fransa

ilə əlaqələrin yaradılmasına heç bir cəhd göstərilməmiş və yüksək dövlət rəhbərləri səviyyəsində bu məqsədlə heç bir addım atılmamışdır. Məhz həmin dövr Azərbaycan – Fransa münasibətlərində soyuq dövr kimi qiymətləndirilir. Fransanın xarici işlər naziri Erve de Şarett 1996-cı ilin oktyabrında Bakıya səfəri zamanı iki dövlət arasındakı münasibətlərdə həmin illərdə yaranmış boşluğun və qarşılıqlı etimadsızlığın hər iki tərəfə, xüsusən Azərbaycana vurduğu zərbəni xüsusi qeyd etməklə, qısa müddətdə bu münasibətlərin normal məcraya salınmasında Azərbaycan Prezidenti Heydər Əliyevin xidmətlərini ayrıca vurğulamışdır [2, 78-80]. Həqiqətən də, Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə xarici siyasətdəki səriştəsizliyə son qoyuldu, Azərbaycan region və dünya dövlətləri ilə balanslaşdırılmış beynəlxalq siyasət kursunu həyata keçirməyə başladı [3, 23-24]. Ulu öndər Avropanın böyük dövlətlərindən biri olan və açıq erməniपərəst mövqeyi ilə seçilən Fransa ilə hərtərəfli əlaqələri genişləndirməyə və daim inkişaf etdirməyə xüsusi diqqət yetirdi. 1993-cü il oktyabr ayının 10-da Prezident seçilməsi ilə bağlı keçirilən andiçmə mərasimindəki çıxışında Heydər Əliyev qeyd etmişdir ki, «Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilmişdir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı-faydalı əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmlətmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir» [4, 205].

Heydər Əliyevin Fransa ilə münasibətləri inkişaf etdirməyə böyük önəm verməsinin bir neçə səbəbi vardı. Bu, ilk növbədə, BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan Fransanın Avropa və eləcə də dünya səviyyəsində oynadığı mühüm rol ilə, dünyanın inkişaf etmiş ölkələrindən biri olması ilə bağlı idi. Ümummilli lider Fransanın Azərbaycan – Ermənistan münaqişəsinə göstərə biləcəyi təsiri də lazımınca qiymətləndirirdi (təsadüfi deyildir ki, Fransa 1997-ci ildən ATƏT-in Minsk Qrupunun həmsədrlərindən biri oldu). Bildiyiniz kimi, Fransa Avropada ən güclü, ən nüfuzlu erməni diasporuna malik ölkədir və müxtəlif rəqəmlərə görə, burada 500-550 min nəfərədək erməni mənşəli vətəndaş var. Sözsüz ki, Azərbaycan haqqında və ümumiyyətlə türkdilli xalqlar haqqında stereotiplərin yaranmasında bu diasporun mənfi rolu çox böyükdür. Ona görə də Heydər Əliyev ölkələrimiz arasında münasibətləri qurarkən bu amili də nəzərə alır və çalışırdı ki, Fransa ictimaiyyətinə və siyasi elitasına Azərbaycanla bağlı həqiqətlər düzgün formada çatdırılsın. Bundan başqa, Fransa iqtisadi baxımdan Azərbaycan üçün çox vacib bir tərəfdaşdı. Eyni zamanda, Azərbaycan, geostrateji mövqeyinə və enerji ehtiyatına görə, Fransa üçün bizim regionumuzda ən vacib ölkələrdən biridir.

Beləliklə, təcrübəli siyasi xadim və incə diplomat Heydər Əliyev keçmiş iqtidar başçılarından fərqli olaraq Fransa dövlətinin dünyada və Avropada oynadığı rolu, malik olduğu gücü, nüfuzu və təsir dairəsini yaxşı bildiyindən, ilk növbədə o vaxta kimi Azərbaycanda yalnız “düşmən” kimi təqdim olun-

muş Fransa ilə əlaqələri sahmana salmağı qərarlaşdırdı. Belə ki, Azərbaycanın dövlət mənafeyinə zidd olan iqtisadi və informasiya blokadasının, diplomatik təcridolunmanın aradan qaldırılması istiqamətində qətiyyətli addımlar atan Prezident Heydər Əliyevin ilk rəsmi səfəri və müstəqil Azərbaycan dövlətinin Avropaya çıxışı 1993-cü ilin dekabrında məhz Fransadan başladı [2, 82].

1993-cü il 19 - 22 dekabr tarixlərində Fransaya səfəri zamanı Heydər Əliyev Fransa prezidenti Fransua Mitteran, xarici işlər naziri Alen Jüppe, parlament rəhbərliyi, ölkənin sənaye - biznes dairələrinin təmsilçiləri ilə görüşlər keçirmişdi. Mitteran və Heydər Əliyev Fransa və Azərbaycan arasında dostluq, anlaşma və əməkdaşlıq haqqında müqavilə imzaladılar. Heydər Əliyev Parisdə olduğu zaman ATƏM - in əsas müqavilələrindən olan, Şərqi Avropanın sosialist və keçmiş sovet respublikalarının demokratiya və bazar iqtisadiyyatına keçidini nəzərdə tutan "Paris Xartiyası"nı da imzalamışdır. Fransua Mitteran Azərbaycanın ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını tanıdığını bəyan etdi. O, münaqişənin ATƏM konfransı çərçivəsində həllinin düzgünlüyünü bildirdi. Fransua Mitteran Dağlıq Qarabağ münaqişəsi nəticəsində Azərbaycanda vəziyyətin daha gərgin olduğunu təsdiqlədi və Fransanın evlərini və torpaqlarını itirmiş insanlara yardım göstərəcəyini dedi. Heydər Əliyev Fransua Mitterana Azərbaycanın Fransa ilə əməkdaşlığa böyük əhəmiyyət verdiyini, onun sərhədlərin toxunulmazlığı barədə bəyanatını yüksək qiymətləndirdiyini bəyan etdi.Görüşdə məlum oldu ki, fransa dövləti və xalqı heç də Azərbaycanda deyildiyi kimi "bizim düşmənimiz, ermənin dostu" deyil. Fransua Mitteranın "Biz sülh və təhlükəsizlik prinsiplərinə əsasən sərhədlərin siah və zor gücünə dəyişdirilməsinə yol verməsik. Biz müstəqillik və suverenliyin qanunla qorunmasını istəyirik" [5, 39] – söyləməsi nəinki təkcə səfəri diqqətlə izləyən Ermənistanı və bu ölkədəki erməni lobbisini sarsıtdı, həmçinin bütün dünynı heyrətləndirdi. Bütün dünyanın nəzərində hər şey bircə anın içərisində dəyişdi. Bu, Azərbaycan dövlətinin öz müstəqilliyini elan etdiyi 1991-ci ildən bəri xarici siyasət sahəsində əldə etdiyi ilk böyük və əsaslı qələbə idi [2, 83-84].

Beləliklə, bu səfər həm dövlətlərarası, həm də iki ölkə rəhbəri arasında dərinləşən şəxsi münasibətlərin inkişafının əsasını qoydu və ölkəmizin xarici siyasət strategiyasının düzgün qurulduğunu göstərdi. Fransanın Azərbaycana və onun problemlərinə diqqətlə yanaşması, onunla dostluq münasibətləri yaratması, Azərbaycanın ərazi bütövlüyünün pozulmasına Fransanın razı olmayacağı haqqında F.Mitteranın bəyanatı Azərbaycanın sonrakı mövqeyinə, onun Qərb və ABŞ-la əlaqələrinə çox böyük müsbət təsir göstərdi. Bundan sonra Azərbaycan Fransanın Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə ATƏT-in Minsk qrupu həmsədrləri sırasına daxil olmasına razılıq verdi. Prezident J.Şirak Qarabağ münaqişəsinin nizamlanması prosesinin fəal iştirakçılarından olmuş və bir neçə dəfə məsələyə dair konkret təşəbbüslərlə çıxış etmişdi (o, Azərbaycan və Ermənistan prezidentlərinin Parisdə görüşünü təşkil etmiş və burada problemin həllinə dair konkret layihələr – nizamlanmanın

Paris prinsiplərini irəli sürmüşdür).

Azərbaycan Prezidentinin səfərindən sonra tərəflər iqtisadi əlaqələri genişləndirməyə başladılar. Heydər Əliyev 1995-ci ilin dekabrında Fransaya ikinci dəfə səfər edərək Azərbaycanda investisiya qoyulmasına dair konfransın iştirakçısı olmuş və Fransa şirkətlərini Azərbaycana dəvət etmişdi. 1996-cı ildə Fransanın "Elf - Aquitaine" şirkəti "Şahdəniz" neft yatağının istismarına dair müqaviləyə qoşuldu [2, 89].

10 - 11 yanvar 1996-cı ildə Heydər Əliyev Parisdə Fransua Mitteranın dəfn mərasimində iştirak etmişdi. Bu səfəri zamanı "Evro - nyus" televiziya kanalına müsahibəsində o, mərhum prezident Mitteranla dostluq münasibətlərində olduğunu, 1993-cü il dekabr səfəri zamanı onunla Azərbaycan və Fransa arasında yüksək əməkdaşlıq münasibətləri yaratdığını bildirmişdi [6]. 1996-cı ilin oktyabrında Fransanın xarici işlər naziri Erve de Şarett Azərbaycanda səfərdə olarkən o, Parisin İrəvanla dostluq əlaqələrinə görə Azərbaycanın Fransa ilə sıx əməkdaşlıq edə bilməyəcəyi fikriylə razılaşmadığını demiş. Heydər Əliyev isə keçən dövr ərzində bərqərar olmuş münasibətlərin səviyyəsini yüksək qiymətləndirdiyini vurğulamışdı [7].

Azərbaycan - Fransa tərəfdaşlığının dərinləşdirilməsinin davamı olaraq 1997-ci ilin yanvarında Heydər Əliyev prezident Jak Şirakın dəvətilə Fransaya ikncі rəsmi səfərini edib. 13 yanvar 1997-ci ildə Yelisey sarayında Fransa prezidenti Jak Şirakla görüşündə Heydər Əliyev Fransanın ATƏT - in Lissabon sammitində Azərbaycanın təkliflərini müdafiə etdiyini xatırladaraq bundan razı qaldığını söylədi [8, 240-242]. Heydər Əliyevin həmin səfəri zamanı Yelisey sarayında Azərbaycan Dövlət Neft Şirkəti və Fransanın "Total" və "Elf - Aquitaine" şirkətləri arasında Azərbaycanın "Lənkəran - dəniz" və "Talış - dəniz" yataqlarının birgə işlənməsi barədə müqavilə imzalandı. Bu müqavilədən əlavə tərəflər hava nəqliyyatı, azad yerdəyişmə və mədəniyyət sahələrinə dair də sazişlər bağladı.Məhz həmin ildən etibarən Fransa, Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün vasitəçi olan ATƏT-in Minsk qrupunun ABŞ və Rusiya ilə birlikdə həmsədri kimi fəaliyyətə başladı.

Fransa Azərbaycanın Avropa Şurasına daxil olması üçün lazımi addımlar atıb. Avropa Şurasının Azərbaycan üzrə məruzəçisi olmuş Fransa parlamentinin üzvü Jak Bommel bu istiqamətdə fəaliyyət göstərib. Azərbaycan Prezidenti Heydər Əliyev 14 iyul 2000-ci ildə Fransanın milli bayramı münasibətilə nitqində həmin məsələ və Fransa prezidenti Jak Şirakla əməkdaşlıq münasibətlərindən razılığını ifadə edib [9].

2001-ci ildə birbaşa Jak Şirakın təşəbbüsü ilə Parisdə Azərbaycanın dövlət başçısı Heydər Əliyev və Ermənistanın prezidenti Robert Koçaryanın iki dəfə təkbətək danışıqları keçirilib. Görüşlər nəticə verməsə də Jak Şirak Paris müzakirələrinin (2001, yanvar, mart) münaqşənin həlli üçün yaxşı əsas yarada biləcəyinə ümid etdiyini bildirmişdi. O, istənilən razılaşmanın hər iki tərəf üçün məqbul olmasının vacibliyini bəyan etmişdi.

Azərbaycan Prezidenti Heydər Əliyev 14 iyul 2002 - ci ildə Bakıda Bastiliyanın alınması günü münasibətilə etdiyi növbəti çıxışında da Fransa ilə münasibətlərə böyük əhəmiyyət verdiyini elan etdi: "Fransa ilə bizim çox sıx dostluq və faydalı əməkdaşlıq əlaqələrimiz var. Bu əlaqələr demək olar ki, bütün sahələri- siyasi, iqtisadi, həm də elmi-mədəni, humanitar və digər sahələri əhatə edir. Biz dostluğumuzu və əlaqələrimizi yüksək qiymətləndiririk. Bu əlaqələri qorumaq, şərəfinə verilən ziyafətdəki çıxışında bu səfərin böyük əhəmiyyəti olduğunu söylədi. O, Parisin İrəvanla dostluq əlaqələrinə görə Azərbaycanın Fransa ilə sıx əməkdaşlıq edə bilməyəcəyi fikriylə razılaşmadığını bildirdi. Heydər Əliyev keçən dövr ərzində bərqərar olmuş münasibətlərin səviyyəsini yüksək qiymətləndirdiyini vurğuladı [7].

2002-ci ilin noyabrında NATO/Avroatlantika Tərəfdaşlıq Şurasının Praqa sammitində də görüşən Heydər Əliyev və Jak Şirak Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsini müzakirə etdilər [10].

Beləliklə, müstəqil Azərbaycan Respublikasının Fransa ilə hərtərəfli əlaqələrinin inkişafında ümummilli lider Heydər Əliyev mühüm rol oynamışdır. Məhz onun fəaliyyəti nəticəsində dövlətlərimiz arasında ən yüksək səviyyədə dialoq qurulmuş, ölkələrimiz arasında hərtərəfli münasibətlər getdikcə vüsət alıb inkişaf etməkdədir. Ümummilli liderin qətiyyətli və ardıcıl xarici siyasəti nəticəsində Azərbaycan, doğrudan da, Fransa üçün strateji bir tərəfdaşa çevrilmiş və eyni zamanda bizim üçün Fransa da ən aparıcı tərəfdaş ölkələrdən biri olmuşdur. Fransanın rəsmi mövqeyi ondan ibarətdir ki, Azərbaycan torpaqları işğal olunub. Fransa Azərbaycanın ərazi bütövlüyünü tanıyır.

## ƏDƏBİYYAT


1. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı: Azərnəşr, 2005, 752 s.
2. Həsənov Ə. Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1996). Bakı: Elm, 2000, 368 s.
3. Rəcəbli A. Heydər Əliyev və Beynəlxalq təhlükəsizlik sisteminin formalaşması // Heydər Əliyev: qəlblərdə yaşayan ömür (Heydər Əlirza oğlu Əliyevin vəfatının 1 illiyinə həsr olunmuş məqalələr toplusu), «Kitab aləmi» nəşriyyat-poliqrafiya mərkəzi, Bakı, 2004, s.22-33.
4. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 30 kitabda, I kitab (İyun 1993-may 1994). Bakı: Azərnəşr, 1997, 597s.
5. Heydər Əliyev Azərbaycanı dünyaya tanıdır (N.İbrahimov, İ.Şükürov). Bakı: Azərnəşr,1994,173 s.
6. "Azərbaycan" qəzeti, 1996, 20 yanvar.
7. "Azərbaycan" qəzeti, 1996, 12 oktyabr.
8. Heydər Əliyev: Müstəqilliyimiz əbədidir (çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, müraciətlər, fərmanlar). 8-ci cild, Bakı: Azərnəşr, 1998, 488 s.
9. "Azərbaycan" qəzeti, 2000, 15 iyul.
10. www.diplomatie.gouv.fr/www.mfa.gov.az/eng/diplomatiya_alemi.

# РОЛЬ ГЕЙДАРА АЛИЕВА В РАЗВИТИИ АЗЕРБАЙДЖАНО–ФРАНЦУЗСКИХ ОТНОШЕНИЙ

**С.С.ГУЛИЕВА**

## РЕЗЮМЕ

В статье анализируется деятельность выдающегося государственного деятеля Гейдара Алиева в развитии отношений Азербайджана с Францией. Он заложил основу политического, экономического, а также культурного сотрудничества между Азербайджаном и Францией, сделал огромный личный вклад в укрепление дружбы и взаимопонимания, существующего между нашими странами.

**Ключевые слова:** Гейдар Алиев, Азербайджан, Франция, дипломатия, внешняя политика

# HAYDAR ALIYEV'S ROLE IN THE DEVELOPMENT OF RELATIONS BETWEEN AZERBAIJAN AND FRANCE

**S.S.GULIYEVA**

## SUMMARY

The article analyzes the activity of the outstanding statesman, Haydar Aliyev in the development of relations between Azerbaijan and France. He put in pawn the basic political, economic and cultural cooperation between Azerbaijan and France, made a huge contribution to strengthening friendship and mutual understanding between our countries.

**Key words:** Haydar Aliyev, Azerbaijan, France, diplomacy, foreign policy